Ankara

# Bakının işğaldan azad edilməsinin 106-cı ildönümü qeyd olunub

**Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV), Ankara Ticarət Palatası, Türk Dünyası Parlamentariləri Fondu (TDPV) və Azərbaycanın Türkiyədəki səfirliyinin birgə təşkilatçılığı ilə Ankara Ticarət Palatası Şurasının binasında "Qafqaz İslam Ordusu və Ənvər Paşa" mövzusunda tədbir keçirilib.**




Ankara Ticarət Palatası İdarə Heyətinin rəhbəri Gürsel Baranın moderatorluq etdiyi toplantıda milli müdafiə nazirinin müavini Şuay Alpay, Prezident Təhlükəsizlik və Xarici Siyasət İdarə Heyətinin üzvü və TADİV İdarə Heyətinin sədri, professor Aygün Attar, TDPV prezidenti Abdullah Çalışkan, Azərbaycanın Ankaradakı səfirliyinin müşaviri Eldar Əliyev, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri və AK Partiya İstanbul millət vəkili Şamil Ayrım, siyasi partiya nümayəndələri, zabitlər və çox sayda qonaqlar iştirak ediblər.

Türkiyə və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsindən sonra Qafqaz İslam Ordusu haqqında məlumatların yer aldığı tanıtım filmi nümayiş etdirilib.

Tədbirdə çıxış edən Türk Dünyası Parlamentariləri Fondunun rəhbəri Abdulla Çalışkan Bakının bolşevik və daşnaklardan azad edilməsini Osmanlı ordusunun Birinci Dünya müharibəsi dövründə qazandığı üç böyük qələbədən biri adlandırıb. "Qafqaz İslam Ordusunun keçdiyi şərəfli yol haqlı olaraq Çanaqqala və Kut əl-Əmər döyüşləri iştirakçılarının şücaətləri ilə eyni sıradadır", - deyə Abdulla Çalışkan bildirib. O vurğulayıb ki, türk xalqlarının birliyinin gücü qarşısında heç bir qüvvə dura bilməz. Məhz buna görə də Qafqaz İslam Ordusunun qəhrəmanlarının şücaətini xatırlamaq, yeni nəsilləri vətənpərvərlik və dostluq ruhunda tərbiyə etmək vacibdir.

TADİV-in rəhbəri Aygün Attar Azərbaycanın köməyinə gələn Ənvər Paşanın komandanlığı altındakı ordunun tarixi rolunu qeyd edərək vurğulayıb ki, Qafqaz İslam Ordusu Türkiyə ilə Azərbaycanın ortaq tarixinin şanlı hekayəsidir. O dövrdə Osmanlı dövlətinin üzləşdiyi çətinliklərə və problemlərə baxmayaraq, qətiyyət nümayiş etdirilib və qardaş Azərbaycan xalqına kömək üçün ordunun formalaşmasına qərar verilib. 106 il bundan əvvəl Bakını işğaldan azad edən Qafqaz İslam Ordusu əsgərlərinin şücaəti türk və Azərbaycan xalqlarının sarsılmaz dostluğu üçün möhkəm bünövrə formalaşdırıb.

Tədbirdə çıxış edən Milli Müdafiə Nazirinin müavini Şüay Alpay Bakının işğaldan azad edilməsi gününü Azərbaycan-Türkiyə qardaşlığının əsas təməli adlandırıb: "15 sentyabr bizim üçün çox özəl və önəmli bir gündür. Azərbaycan-Türkiyə münasibətlərinin hazırda daha da möhkəmlənməsinin, müttəfiqlik səviyyəsinə gəlməsinin əsasını məhz bu cür tarixi günlər qoyub. Başda Məhəmməd Əmin Rəsulzadə, Ənvər Paşa, Nuru Paşa olmaqla Azərbaycanın müstəqilliyi üçün həyatlarını fəda edən bütün qəhrəmanları rəhmətlə yad edirəm.

Tək niyyətimiz odur ki, Türkiyə-Azərbaycan dostluğu daimi və əbədi olsun. Bunun üçün əsaslı tarixi bilgilərə sahib olmaq çox önəmlidir".

Ankara Ticarət Palatasının İdarə Heyətinin rəhbəri Gürsel Baran Ənvər Paşa və Nuru Paşanı yad edərək, Türkiyə ilə Azərbaycan arasında möhkəm əlaqələrə toxunub. O qeyd edib ki, Türkiyə və Azərbaycan xalqlarını ortaq tarixi-mədəni köklər birləşdirir. İki ölkə liderlərinin uğurlu və düşünülmüş siyasəti "Bir millət, iki dövlət" kəlamı nöqteyi-nəzərindən sıx əməkdaşlığın rəmzi olub.

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım vurğulayıb ki, 1918-ci ildə Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq, Osmanlı dövləti həmin ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirib: "Belə bir şəraitdə Türkiyənin çox ağır durumda olmasına baxmayaraq, Osmanlı dövləti qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərib. Tarix boyu Türkiyə Azərbaycana öz dəstəyini nümayiş etdirib. 1918-ci il sentyabrın 15-də Azərbaycan və Osmanlı əsgərləri Bakını bolşevik-daşnak işğalından azad edərək Azərbaycan dövlətinin tarixinə şərəfli gün yazıblar.






ATƏT-in Minsk qrupunun həmsədrləri 30 il ərzində danışıqlar prosesini irəli apara və Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıra bilmədilər. Nəticədə Azərbaycan öz gücü sayəsində tarixi ədaləti bərpa etdi".

Ş.Ayrım Prezident İlham Əliyevin qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə bağlı sənədə istinadın yer aldığı Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi ilə bağlı bəyanatının əsaslı olduğunu da qeyd edib.

Tədbir çərçivəsində 1918-ci ildə Azərbaycanda baş verən hadisələrə həsr olunmuş sərgi təşkil olunub.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**